AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİNDƏ FİZİKİ MÜHİTİN TƏHLİLİ VƏ TƏHLÜKƏSİZLİK PROSESLƏRİNƏ NƏZARƏT PROSEDURU

I. Ümumi müddəalar

1.1. Fiziki mühitin təhlili və təhlükəsizlik proseslərinə nəzarət mexanizmi Azərbaycan Turizm və Menecment Universitetində (bundan sonra, ATMU) işçilərin və təhsilalanların sağlamlıq və təhlükəsizliklə bağlı öz hüquq və öhdəliklərini tənzimləyir.

1.2. Prosedurun hazırlanmasında ATMU-nun Nizamnaməsi, Nazirlər Kabinetinin müvafiq qərarları və digər normativ sənədlər əsas götürülmüşdür.

1.3. Fiziki mühitin təhlili və təhlükəsizlik proseslərinə nəzarət aidiyyatı strukturlar tərəfindən cari prosedur nəzərə alınmaqla həyata keçirilir.

II. Fiziki mühitin təhlili və təhlükəsizlik proseslərinə nəzarətin əsas məqsədi

2.1. Fiziki mühitin təhlili və təhlükəsizlik proseslərinə nəzarət mexanizminin məqsədi ATMU-da fiziki sağlamlıq və təhlükəsizlik tələblərinə uyğunluğun yoxlanılmasına, çatışmazlıqların aradan qaldırılmasına və ümumi olaraq keyfiyyətin təkmilləşdirilməsinə xidmət etməklə, onun strateji məqsəd və hədəflərinə nail olmasına dəstək olmaqdır.

III. Fiziki mühitin təhlili və təhlükəsizlik proseslərinə nəzarətin təşkili

a. Yanğın təhlükəsizliyi norma və qaydalarına uyğun olaraq ATMU-da mövcud olan ilkin yanğınsöndürmə vasitələrinə nəzarət mülki müdafiə üzrə mütəxəssis tərəfindən mütəmadi olaraq aparılır.

b. Yanğınsöndürən balonların yeni tərkibdə doldurulması, avtomatik yanğın xəbərverici siqnalizasiya qurğularının texniki baxışdan keçirilməsi hər il lisenziyası olan şirkət tərəfindən həyata keçirilir.

c. ATMU-nun əməkdaşları və təhsilalanlar mütəmadi olaraq yanğın təhlükəsizliyinə dair mövzularda mülki müdafiə üzrə mütəxəssis tərəfindən təlimatlandırılır.

d. Yanğın və fövqəladə hallar zamanı əməkdaşların və təhsilalanların binadan çıxarılması və Universitet ərazisindən təxliyyə olunması ATMU-nun Könüllü yanğın drujinasının üzvlərinin köməkliyi ilə “Təxliyyə Planına” əsasən həyata keçirilir.

e. Yeməkxanada quraşdırılmış havalandırma (ventilyasiya) sistemi lisenziyası olan şirkət tərəfindən üç (3) ildə bir dəfə təmizlənərək işlək vəziyyətə gətirilir.

f. Xidmət şöbəsinin texniki işlər üzrə mütəxəssisi tərəfindən mütəmadi olaraq həmin sistemin sazlığına nəzarət edilir.

g. Sanitar gigeyenik qaydalara riayət olunması üçün lazım olan tədbirlər (maarifləndirmə materiallarının və sanitar gigiyenik vasitələrin yerləşdirilməsi və yenilənməsi) ATMU-da Xidmət şöbəsinin əməkdaşı - komendant tərəfindən həyata keçirir.

h. ATMU-da əməyin təhlükəsizlik işi Əməyin təhlükəsizliyi qaydalarına əsaslanaraq “Xidmət şöbəsi”nin müdir müavini tərəfindən müvafiq tədbirlər planına uyğun olaraq təşkil edilir, icra vəziyyəti yoxlanılır və təkmilləşdirilir.

i. ATMU-da təmizlik işlərini müvafiq qrafikə uyğun olaraq komendantın nəzarəti altında xadimələr həyata keçirirlər.

j. Mütəmadi və mövsümi xarakteri daşıyan abadlaşdırma və yaşıllaşdırma işləri bağbanlar tərəfindən komendantın nəzarəti altında həyata keçirilir.

k. Qış fəslində binanın qızdırılması katirovka əsasında qalib şirkət tərəfindən mərkəzi isitmə sistemi ilə həyata keçirilir.

l. Təmir işlərinə başlamazdan əvvəl Xidmət şöbəsinin əməkdaşları tərəfindən universitetin binasına baxış keçirilir.Təmir işlərinə ehtiyac olan sahələr barədə “Xidmət şöbəsi”nin müdiri tərəfindən xidməti məktub hazırlanaraq ATMU-nun rektoruna təqdim edilir. Eyni zamanda tədris ili ərzində hər hansı bir sahədə təmir işlərinə zərurət yarandıqda prosedur həmin qaydada aparılır.

m. “Xidmət şöbəsi” tərəfindən fiziki mühitin normativlərə uyğunluğu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 avqust 2012-ci il tarixli, 171 nömrəli “Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri”nin təsdiq edilməsi haqqında” Qərarına əsasən vaxtaşırı yoxlanılır.

IV. Yekun müddəalar

a. Bu nəzarət mexanizmi ATMU-nun Elmi Şurasının Qərarı ilə rektor tərəfindən təsdiq edilir.

b. Prosedura əlavə və dəyişikliklər ATMU-nun Elmi Şurasının Qərarı ilə rektorun təsdiqi əsasında edilir.

c. Bu sənəddə nəzərdə tutulmayan məsələlər Qanunvericiliklə və ATMU-nun Nizamnaməsi ilə tənzimlənir.

d. Azərbaycan Respublikasının Qanunvericiliyi, ATMU-nun Nizamnaməsi ilə bu sənədin müddəaları arasında ziddiyyət yaranarsa, birincilər üstün hüquqi qüvvəyə malikdirlər.